Azərbaycan.- 2024.- 28 fevral, № 45.- S.11.

Yadigarlar

# "Kamal Talıbzadə və Səməd Vurğun"

**Səməd Vurğunun ev-muzeyində görkəmli ədəbiyyatşünas və tənqidçi Kamal Talıbzadənin 100 illik yubileyinə və onun yaradıcılığına, şəxsiyyətinə sonsuz məhəbbət bəslədiyi böyük Azərbaycan şairi Səməd Vurğuna həsr olunmuş "Kamal Talıbzadə və Səməd Vurğun" adlı ədəbi-bədii gecə keçirilib.**



Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçiləri, ədəbiyyatşünaslar, tanınmış yazıçı və şairlər, Abdulla Şaiqin mənzil-muzeyinin və Səməd Vurğunun ev-muzeyinin rəhbərliyi və əməkdaşları iştirak ediblər.

Səməd Vurğunun ev-muzeyinin direktoru Vurğun Vəkilov tədbiri giriş sözü ilə açaraq iştirakçıları salamlayıb. Filologiya elmləri doktoru, professor Zahid Xəlil, Kamal Talıbzadənin sonuncu aspirantlarından filologiya üzrə fəlsəfə doktorları dosent Aygün Bağırlı, Arzu Hacıyeva, filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov, filologiya üzrə fəlsəfə doktorları Nəzakət Qafqazlı, Aslan Salmansoy çıxış ediblər. Onlar Kamal Talıbzadənin zəngin elmi yaradıcılığından, geniş elmi-təşkilati fəaliyyətindən ətraflı danışaraq tədbir iştirakçıları ilə xatirələrini bölüşüblər. Kamal Talıbzadənin dahi Səməd Vurğun şəxsiyyətinə sonsuz məhəbbəti, ona həsr edilən elmi məqalələri, onların şəxsi münasibətləri, qohumluq əlaqələri ilə bağlı söylənilən fikirlər və kövrək xatirələr gecənin qonaqlarında böyük maraq doğurub.

Sonra tədbirin bədii hissəsi başlayıb. Bədii hissədə gənc solistlərin ifasında Niyazinin "Xoreoqrafik vals", Ə.Əzizovun "Prelüdiya" musiqi əsərləri səsləndirilib. Ardınca "Nəlbəki" və "Səməni" xalq rəqsləri ifa edilib.

Tədbrin sonunda Abdulla Şaiqin mənzil-muzeyinin direktoru, Kamal Talıbzadənin qızı Ülkər Talıbzadə tədbirin təşkilində əməyi keçən hər bir kəsə dərin minnətdarlığını bildirib. Maraqlı və dərinməzmunlu səmimi çıxışlarına görə ədəbiyyatşünas alimlərə, ədəbi-bədii gecənin qonaqlarına təşəkkür edib.

***"Azərbaycan"***